MAY - SENTYABR / 2023

# SAĞLAM XƏBƏR




## ildir sizinləyik!

910
(012) ÇAĞRI MƏRKƏZİ

Bizə WhatsAppdan yazın!
+99455 4000 910

www.saglamaile.az

# 20 ildir sizinləyik!

- 2003-cü ildə məqsədimizə inanaraq yola çıxdıq.
- Gecəmizi gündüzümüzə qatdıq.
- Sağlam ailələrin qurulması üçün yüksək keyfiyyətlə xidmət göstərdik.
- Durmadan, yorulmadan əl-ələ verərək çalışdıq.
- Bütün uğurlarımızı birlikdə əldə etdik.
- Bir çox ilklərə imza atdıq.
- ISO 9001 Keyfiyyətli İdarəetmə Sisteminin standartını əldə etmiş ilk tibb mərkəzi olduq.
- ISO 10002 Keyfiyyətin İdarə olunması/ Müştəri məmnuniyyəti/ Müəssisələrdə şikayətlərə baxılmasına dair sertifikat əldə etmiş ilk tibb mərkəzi seçildik.
- Laboratoriyamıza, Həkimlərimizə, Ailə üzvlərimizə, Keyfiyyətimizə olan inamımızı heç vaxt itirmədik.
- Keyfiyyətimizə və hədəflərimizə hər zaman sadiq qaldıq.
- Hər zaman mükəmməlliyi seçdik.
- Çox çətin mərhələlərdən keçdik.
- Bununla da, Azərbaycanda TürkAk akkreditasiyalı ilk tibbi laboratoriya olduq.
- Sağlam Ailə olaraq birlikdə sevindik, sevindirdik, qürurlandıq, qürrələndik, bir-birimizə ürəkdən bağlandıq, böyük bir ailə olduq.
- 20 illik tariximizə bir çox özəl anlar və uğurlar yazdıq.
- 2003-cü ildə çıxdığımız yola bu gün də eyni istək və sevgi ilə davam edirik.

**Bu pilləyə qalxmağımızda və müvəffəqiyyətlər əldə edərək seçilməyimizdə iştirak edən pasiyentlərimizə, həkimlərimizə və əməkdaşlarımıza dərindən təşəkkür edir, birlikdə yeni nailiyyətlər qazanmağı arzulayırıq.**



# RƏHBƏRLİK

2003-cü ildən **"Biz xəstəxana deyil, profilaktik müayinə mərkəziyik"** ideologiyası ilə fəaliyyətə başlayan Sağlam Ailə Tibb Mərkəzinin əsas hədəfi gənclər arasında nikah öncəsi və profilaktik müayinə mədəniyyətini təbliğ etmək, tibbi maarifləndirmə vasitəsilə gələcəkdə yarana biləcək xəstəliklərin qarşısını almaqdır.

Hal-hazırda mərkəzimizin Bakı, Gəncə və Sumqayıt şəhərlərində **5 filial** fəaliyyət göstərir.

**ISO 9001:2008** keyfiyyət standartına malik mərkəzimiz yarana biləcək xəstəliklərin qarşısını almaq məqsədilə yüksək texnologiya əsasında fəaliyyət göstərərək, respublikamızdakı tibb müəssisələri arasında özünəməxsus yerə sahibdir. Tam avtomatlaşdırılmış sistem, Amerika və Avropa istehsalı olan reagentlər, keyfiyyətə xüsusi nəzarət və elektron idarəetmə sistemi pasiyentlərimizin bizə olan inamını və güvənini daim artırır.

Mərkəzimizdə göstərilən xidmət çeşidini artırmaq üçün beynəlxalq akkreditasiya olunmuş laboratoriyalar ilə əməkdaşlıq edirik. Bizə müraciət edən pasiyentlərə geniş çeşidli xidmət göstərmək məqsədilə dünya tibb sahəsində olan laborator yeniliklər mərkəzimizdə tətbiq olunur. Göstərdiyimiz yüksək keyfiyyətli xidmətdə ən dəyərli sərvətimiz olan ailə üzvlərimiz xüsusi rola malikdir. Onların səriştəsi,



peşəkarlığı, təcrübəsi və əzmkarlığı uzunmüddətli uğurlarımızın əsasını təşkil edir.

**Sağlam Ailə Tibb Mərkəzinin**
**İdarə Heyətinin Sədri**

*Vüqar Eyvazov*



Sağlam Ailə qurulduğu gündən etibarən ölkədə ən etibarlı, ən düzgün nəticələrə nail olmaq, gənclər arasında nikah öncəsi və profilaktik müayinə mədəniyyətini təbliğ etmək üçün yorulmadan, məsuliyyətlə çalışır.

Ailəmiz daima yeniliklərin nəbzini tutur, müasir tendensiyalarla ayaqlaşmağa çalışır, pasiyentlərinə üstün xidmət təqdim etmək üçün onların önəm verdiyi məsələlərdə məmnuniyyəti daha da artırmaq üçün beynəlxalq təcrübəni inamla mənimsəyir.

Gələcəyə baxışımız sağlam nəsil formalaşmasını dəstəkləyərək cəmiyyətin və dövlətin səhiyyə üzrə tərəfdaşı kimi tanınmaq, fəlsəfəsi isə mövqeyinə, ənənə və dəyərlərinə sadiq qalmaqdır.

Görülən bütün işlər və əldə edilmiş nəticələr deməyə əsas verir ki, Sağlam Ailə stabil və dinamik inkişaf edir, nüfuzu ilə beynəlxalq səviyyədə də öz sözünü deyir. Bunun göstəricisi olaraq, bu günədək bir çox mükafatlara layiq görülüb. Əldə etdiyi uğurlarla kifayətlənməyərək daima irəli baxıb, daha böyük uğurlar qazanmaq üçün durmadan irəliləyir.

Uğurlarımızda əməyi olan Sağlam ailəmizin hər bir üzvünə təşəkkür edir, birlikdə yeni uğurlara imza atmağı arzulayıram.

**Sağlam Ailə Tibb Mərkəzinin**
**İcraçı Direktoru**

*Nigar Rüstəmli*

## FAMİL EYVAZOV
İcraçı Direktor

Mənim üçün Sağlam Ailə, etibarlı, yeniliklərlə zəngin, gözəl dostluqlar qazandıran güvəndiyim yol yoldaşıdır.

## MAHİRƏ ABDULLAYEVA
İşə Qəbul və Kadrlar şöbəsinin rəhbəri

Mənim üçün Sağlam Ailə, mənim həyat tərzimdir.

## REYHAN ƏMİROVA
Hüquqşünas

Mənim üçün Sağlam Ailə, tibb hüququ sahəsində böyük təcrübə, qayğıkeş və peşəkar tibb personalı, mehriban kollektiv və unikal komandadır.

## EMİN QARAŞAROV
Direktor köməkçisi

Mənim üçün Sağlam Ailə, insanların sağlamlığının keşiyində durmağıma səbəb olan, məni təkmilləşdirən, karyera inkişafımda böyük rol oynayan, yeni ideyalara sövq edən ümidli yoldur.

## ARTUR MİXAYLOV
Andrologiya bölməsinin rəhbəri

Mənim üçün Sağlam Ailə, həyatımda ilk, dəyişilməz iş və həyati təcrübə qazandığım məktəbdir.

## SƏADƏT ZƏRBƏLİYEVA
Tibbi praktika üzrə menecer

Mənim üçün Sağlam Ailə, öyrətməyi tükənməyən böyük bir məktəbdir.

# MƏNİM ÜÇÜN

## NƏRGİZ MAHMUDOVA
Analitik Təhlil şöbəsinin aparıcı mütəxəssisi

Mənim üçün Sağlam Ailə, ən gözəl günlərimi, ən gözəl hisslərimi paylaşdığım böyük bir ailədir və bu ailədə mən öz "Sağlam Ailə"-mi qurmuşam.

## GÜLNAR QAFAROVA
Daxili Nəzarət şöbəsinin baş mütəxəssisi

Mənim üçün Sağlam Ailə, çox böyük mənəvi dəyəri olan kollektivdir.

## SƏYYAM ƏLİYEV
Baş mühasib

Mənim üçün Sağlam Ailə, hər şeydən öncə mənə gözəl kollektiv və dəyərli dostlar qazandıran bir məktəbdir.

## TAHİR MAHMUDOV
İnformasiya Kommunikasiya Texnologiyaları şöbəsinin baş mütəxəssisi

Mənim üçün Sağlam Ailə, 16 il birlikdə çalışdığım kollektivlə doğma evim, karyera məktəbimdir.

## FİRAD RƏSULOV
Müştəri Xidmətləri Departamentinin rəhbəri

Mənim üçün Sağlam Ailə, fəaliyyət göstərdiyim sahə üzrə peşəkar və şəxsi keyfiyyətlərimi inkişaf etdirməkdə, yeni təcrübələr qazanmaqda dəstək olan böyük bir ailədir.

## NƏZİRƏ HƏSƏNOVA
Baş tibb bacısı

Mənim üçün Sağlam Ailə, Azərbaycan cəmiyyətinə yüksək səviyyədə xidmət göstərən dürüst mərkəzdir.

## ARİF YUSİFOV
Laboratoriya şöbəsinin müdiri

Mənim üçün Sağlam Ailə, müasir, beynəlxalq səviyyədə keyfiyyətini təsdiqləmiş laboratoriyadır.

## AYNA RƏSULOVA
İctimaiyyətlə Əlaqələr və Kommunikasiya şöbəsinin rəhbəri

Mənim üçün Sağlam Ailə, üstün bacarıqları dəyərləndirən, peşəkarlaşmağa şərait yaradan, ideya və ideallarımın qovuşduğu mühitdir.

## ESMİRA MƏMMƏDOVA
Baş satış təmsilçisi

Mənim üçün Sağlam Ailə, özümün də bir parçası olduğum doğma ailə mühiti, dayaqdır.

## ZEYNƏB ƏLİYEVA
Keyfiyyət üzrə menecer

Mənim üçün Sağlam Ailə, peşəkar və yaradıcı sahədə bir sıra müvəffəqiyyətlərə imza atdığım böyük məktəb, həmçinin sağlam mühit, möhkəm təməl üzərində qurulmuş "kiçik dövlət"dir.

## ELBƏY ŞİRİNOV
Birbaşa satış üzrə menecer

Mənim üçün Sağlam Ailə, dünən, bu gün, sabahdır.

## OKSANA MƏMMƏDOVA
Laboratoriya üzrə sahə rəhbəri

Mənim üçün Sağlam Ailə, mənim bir hissəmdir. Bura elə bir yerdir ki, insan burada daima öyrənir, inkişaf edir, bəzən büdrəyir, amma yıxılmır. Çünki, hər zaman sənin yanında səni yıxılmağa qoymayan ailən olur.

# SAĞLAM AİLƏ...

## MEHRİBAN QULİYEVA
Biomateriallara Nəzarət şöbəsinin rəhbəri

Mənim üçün Sağlam Ailə, ailəmi etibar edəcəyim yerdir.

## TURANƏ RZAYEVA
Tibbi praktika üzrə menecer

Mənim üçün Sağlam Ailə, sağlam düşüncəli, sağlam əqidəli, məsuliyyətli, işinə operativ yanaşan peşəkar komanda deməkdir.

## ATİK RZAYEV
İnzibati İşlər və Təhlükəsizlik Xidməti şöbəsinin rəhbəri

Mənim üçün Sağlam Ailə, daima üzvlərinin qeydinə qalan doğma mühitdir.

## SONA ADILI
Təlim və Kadr Hazırlığı şöbəsinin rəhbəri

Mənim üçün Sağlam Ailə, iş yerindən daha çox doğma evim, onun kollektivi isə doğma ailəm kimidir.

## NƏRGİZ SƏFƏRLİ
Keyfiyyət üzrə aparıcı mütəxəssis

Mənim üçün Sağlam Ailə, karyera yüksəlişimdə ilk və dəyərli pilləmdir.

## TAMARA BAĞIROVA
Ümumi şöbənin rəhbəri

Mənim üçün Sağlam Ailə, sağlam təməli olan, dürüst, nümunəvi, digərlərinin örnək ala biləcəyi cəmiyyətdir.

## RAMİLƏ NURİYEVA
Təsərrüfat bölməsinin rəhbəri

Mənim üçün Sağlam Ailə, dar günün dostudur, arxa-dayaqdır. Həyatımın böyük bir hissəsini əhatə edən işim mənim üçün sadəcə işdən ibarət olmayıb, mənə ikinci ailə mühiti bəxş edib.

2003
Sağlam Ailə®

TÜRKAK
Tıbbi Laboratuar
TS EN ISO 15189
AB-0077-TL

20 İL SİZİNLƏ

# Sağlam Ailə Tibb Mərkəzi **Azərbaycan səhiyyə sistemində bir ilkə imza atdı**




**Beynəlxalq Laboratoriyaların Akkreditasiya Assosiasiyasının (ILAC) tam hüquqi üzvü olan Türkiyə Akkreditasiya Qurumu (TürkAK) tərəfindən aparılan yoxlamalar nəticəsində Sağlam Ailə Tibb Mərkəzi Azərbaycanda TÜRKAK akkreditasiyalı ilk tibbi laboratoriya statusu qazanmışdır.**

***TS EN ISO 15189 keyfiyyət nişanı tibbi laboratoriyalarda təhlükəsizliyi, pasiyentlərin və müalicəyə birbaşa cavabdeh olan klinik heyətin tələb etdiyi dəqiqliyi və keyfiyyətli xidmət göstərməyi əhatə edir.***

Fəaliyyətində xidmətlərini daima təkmilləşdirməyə xüsusi önəm verən və pasiyentlərinə yüksək keyfiyyətli xidmət göstərən Sağlam Ailə Tibb Mərkəzi üçün pasiyentlərin məmnunluğu və xidmətlərə qarşı loyallığı müstəsna əhəmiyyət daşıyır.

Məhz bu səbəbdən, Sağlam Ailə Tibb Mərkəzi yarandığı gündən etibarən keyfiyyətli və dəqiq nəticəyə istiqamətlənmiş laborator xidmət üzrə ölkədə innovativ metodları tətbiq etməyə davam edir.

Qeyd etmək istərdik ki, Sağlam Ailə Tibb Mərkəzi 2014-cü ildə **ISO 15189:2012** sertifikatına da layiq görülmüşdür.

2003-cü ildə fəaliyyətə başlayan mərkəzimiz bu illər ərzində sürətli inkişaf yolu keçərək Azərbaycan səhiyyə sistemində özünəməxsus yer tutub. Mərkəzin qısa müddət ərzində əldə etdiyi nailiyyətlər, etibar edilən bir tibb müəssisəsi kimi nüfuz qazanması uğurlu məqam kimi qiymətləndirilə bilər.

Sağlam Ailə laboratoriyası **ISO 9001:2008, ISO 15189:2012** keyfiyyət və akkreditasiya sertifikatlarını almışdır. 6000-dən artıq müxtəlif növdə laborator müayinələr aparılan laboratoriya Yaponiya, ABŞ, Almaniya və s. kimi ölkələrin aparıcı şirkətlərinin istehsalı olan yüksək texnologiyalı və keyfiyyətli avadanlıqlarla təchiz olunub.

# SƏN DƏ **SAĞLAM AİLƏMİZİN** ÜZVÜ OLA BİLƏRSƏN!

***Aktiv vakansiyalar üçün QR kodu skan edin***

Hər bir müəssisənin uğurlu fəaliyyəti onun kadr potensialından asılıdır. Öz işinin peşəkarı olan əməkdaşlardan ibarət kollektivimiz işini mükəmməl şəkildə icra etməyə qadir təcrübəli mütəxəssislərdir.

Bu 20 il ərzində kadr siyasətimizin əsasında hər zaman korporativ dəyərlərimiz durub. Əməkdaşlarımız pasiyentlərə qayğı göstərilməsi, peşəkarlıq, bilik və bacarıqların inkişafı üçün çalışmaq, etik normalara ciddi riayət edilməsi kimi prinsipləri daima özünə rəhbər tutur.

Ailə üzvlərimizin loyallığı, peşəkarlığı, biliyi, dünyagörüşü, liderliyi, bir sıra zəruri qabiliyyətləri, eləcə də, missiyamızı, gələcəyə baxışımızı və strategiyamızı dərk edərək, yeni əməkdaşlara da təlqin etmə bacarığının olması bizim üçün xüsusi əhəmiyyət daşıyır.

Tibb sahəsində qazanılan uğurlarda kiçik də olsa rola sahib olmağımız bizim üçün böyük şərəfdir. **Sağlam Ailə Tibb Mərkəzi** olaraq, qazandığımız bütün uğurlarda rolu olan peşəkar komandamıza təşəkkür edirik.

QR kodu skan edərək Sağlam Ailə Tibb Mərkəzindəki aktiv vakansiyalarla tanış ola bilərsiniz.



# TƏRƏFDA

PASHA Bank

PASHA Investments

PASHA Travel

PAŞA Holding

PASHA Development

PAŞA Kapital

SmartOn

Qaygı

Kapital Bank

Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası

GLOBAL Management

SOCAR FUGRO

SOCAR-UNIPER LLC

HEYDƏR ƏLİYEV FONDU

Hilton

**ƏTRAFLI MƏLUMAT ÜÇÜN QR KODU SKAN EDİN**

Fəaliyyəti dövründə Sağlam Ailə Tibb Mərkəzi geniş tərəfdaş şəbəkəsinə sahib olub. Tibbi maarifləndirici görüşlərin təşkil edilməsində böyük təcrübəyə malik olan Mərkəzimiz sağlam gələcək naminə tibb sektoru ilə yanaşı, respublikamızda fəaliyyət göstərən bir sıra dövlət və özəl qurumlarla əməkdaşlıq edir. Uzun illər ərzində qazandığımız zəngin təcrübə sayəsində bir çox tərəfdaş qazanmışıq.

**Sağlam Ailə Tibb Mərkəzi** olaraq 20 il ərzində bizə etibar edən, həm dövlət, həm də özəl sektorda müvəffəqiyyətlər əldə edərək seçilməyimizdə iştirak edən bütün tərəfdaşlarımıza təşəkkürümüzü bildirir, birlikdə yeni nailiyyətlər qazanmağı arzu edirik.

# AŞLARIMIZ

Sabunçu Rayon İcra Hakimiyyəti

**TƏRƏFDAŞLIQ ÜÇÜN ƏLAQƏ:**

korporativ@saglamaile.az

# SIĞORTALI, SAĞLAM GƏLƏCƏK ÜÇÜN

# SİZİNLƏYİK!

Fərdi tibbi sığorta Sizin və ailənizin sığorta müddəti ərzində xəstəlik və travma ilə bağlı ortaya çıxa biləcək təcili yardım, həkim, dərman, əməliyyat və s. müalicə xərclərini ödəməyinizə yardım edir.

Sağlamlıq hər kəs üçün ən dəyərli nemətdir. Xəstəlik gəlirəm deməz, gözləmədiyimiz anda tibbi xidmətə, yəni müayinə və müalicəyə ehtiyac yarana bilər. Həmçinin, xəstəliyin yaratdığı mənfi əhval-ruhiyyə və əmək qabiliyyətinin zəifləməsi ilə yanaşı tibbi xərclər də büdcəmiz üçün əlavə yükə çevrilə bilər.

Xəstəlik və travma baş verdikdə sığorta proqramından asılı olaraq tibbi xərclərin hamısı və ya böyük bir hissəsi Sığortaçı tərəfindən ödənilir. Bu baxımından tibbi sığorta sağlamlıqla əlaqədar yaranan xərclərin yükündən xilas edən əhəmiyyətli bir təminatdır.

Sağlam Ailə Tibb Mərkəzi olaraq birlikdə çalışdığımız sığorta şirkətlərini təqdim edirik:





Sağlam Ailə
Tibb Mərkəzində

# KEYFİYYƏTƏ NƏZARƏT

**Keyfiyyətə Nəzarət Şöbəsinin əsas fəaliyyət istiqaməti pasiyentlərə yüksək keyfiyyətli tibbi xidmət göstərilməsinin təmin edilməsinə, eyni zamanda əməkdaşlarımızın əməyinin effektivliyinin yüksəldilməsinə yönəlmişdir.**

Sağlam Ailə Tibb Mərkəzinin pasiyentləri və əməkdaşları arasında, eləcə də cəmiyyətdə yüksək etimad qazanmasına nail olmaq, əməkdaşların ixtisasını artırmaq, fasiləsiz təlimlər təşkil etmək və rifah halının yüksəldilməsi məqsədilə görülən işlər **Keyfiyyətə Nəzarət Şöbəsinin** fəaliyyətində mühüm yer tutur.

Pasiyentlərdən daxil olan tövsiyyə və şikayətlər Keyfiyyətə Nəzarət Şöbəsi tərəfindən araşdırılır. Həmin müraciətlər əsasında daxili audit təşkil olunur və işin daha yüksək səviyyədə aparılması üçün zəruri tədbirlər planı hazırlanır. Həmçinin, fərdi pasiyentlər və korporativ müştərilər arasında məmnunluq sorğuları keçirilir.

QR kodu skan edərək linkə daxil ola, xidmət keyfiyyətimizi qiymətləndirə, təklif və iradlarınızı bizə bildirə bilərsiniz.

SKAN ET

# YOLUNU *Sağlamlığa doğru* DƏYİŞ



# FİLİALLARIMIZ

Qarşımıza qoyduğumuz əsas vəzifələrdən biri fəaliyyətimizdə ən müasir və qabaqcıl texnologiyaların tətbiq olunmasıdır. Bu zərurətlə hədəflərimizə, strategiyamıza və dəyərlərimizə əsaslanaraq gördüyümüz işlərlə xidmət sahələrimizi genişləndirməyə və tibb sektorunun inkişafına töhfə verməyə çalışırıq.

“Xidmətdə sərhəd yoxdur” deyib, pasiyentlərimiz üçün əlçatan olmaq məqsədilə filial şəbəkəmizi genişləndirməyə davam edirik.

Hal-hazırda mərkəzimizin Bakı, Gəncə və Sumqayıt şəhərlərində 5 filialı fəaliyyət göstərir.

### MƏRKƏZ / NƏRİMANOV FİLİALI

- Bakı şəhəri, Əhməd Rəcəbli küçəsi 3/10
  AZ1075 (Şəki restoranının yaxınlığı)

### ULTRALAB MİKRORAYON FİLİALI

- Bakı şəhəri, Asif Məhərrəmov küçəsi 156C
  AZ1102 (3-cü mikrorayon dairəsindən Şamaxinkaya gedən yolda)

### SUMQAYIT FİLİALI

- Sumqayıt şəhəri, Cəfər Cabbarlı küçəsi 46
  AZ5007 (Şəhidlər Xiyabanından Pioner Ticarət Mərkəzinə gedən yolda Cəfər Cabbarlı heykəli ilə üzbəüz)

### 28 MAY FİLİALI

- Bakı şəhəri, Rəşid Behbudov küçəsi 56
  AZ1014 (“OVİR”in yanı)

### ULTRALAB GƏNCƏ FİLİALI

- Gəncə şəhəri, Azərbaycan bayrağı küçəsi
  (İmperial şadlıq sarayının yanı)



SKAN ET

*FİLİALLARIMIZ HAQQINDA ƏTRAFLI MƏLUMAT ÜÇÜN*

# KORPORATİV SOSİAL MƏSULİYYƏT LAYİHƏLƏRİ

Bu təşəbbüs çərçivəsində, Sağlam Ailə Tibb Mərkəzi olaraq bu zamana kimi müxtəlif mövzulara toxunmuş, hər kəsin hərtərəfli və davamlı inkişafı üçün mütamadi olaraq layihələr, tədbirlər, konfranslar keçirilməkdədir.

Dayanıqlı inkişaf konsepsiyasının tətbiqi və sosial məsuliyyətlilik Sağlam Ailə Tibb Mərkəzi idarəçiliyinin təməl prinsiplərini təşkil edir. Məqsədimiz hər zaman iqtisadi, ekoloji, mədəni və ictima inkişafa dəstək verməkdir.
















KSM LAYİHƏLƏRİMİZ HAQQINDA ƏTRAFLI MƏLUMAT ÜÇÜN QR KODU SKAN EDİN

# SƏYYAR MÜAYİNƏLƏR

“Sağlam Ailə” Tibb Mərkəzi əhalinin sağlamlığının qorunması məqsədilə mütəmadi olaraq sosial layihələr həyata keçirir. Belə layihələrdən biri də “Səyyar müayinələr” aksiyasıdır. Aksiyanın keçirilməsində əsas məqsəd əhali arasında profilaktik müayinə mədəniyyətini və sağlam həyat tərzini təbliğ etmək, habelə dövlət siyasətinin, xüsusən Heydər Əliyev Fondunun xeyirxah missiyasının davamı olaraq aztəminatlı və ehtiyacı olan vətəndaşlar üçün pulsuz müayinələrin həyata keçirilməsini təşkil etməkdir. Aksiyalar çərçivəsində 12000-dən çox vətəndaş müraciəti qeydə alınmışdır.















**SƏYYAR MÜAYİNƏLƏR HAQQINDA ƏTRAFLI MƏLUMAT ÜÇÜN QR KODU SKAN EDİN**

# TƏDBİRLƏR

Yarandığı gündən etibarən daim inkişafda olan Sağlam Ailə Tibb Mərkəzi hər zaman inkişaf istiqamətinin düzgünlüyünə diqqət yetirib və bu yöndə tədbirlər həyata keçirməkdədir.

Korporativ mədəniyyətin artırılması əsas məqsədlərimizdən biri olmaqdadır. Əməkdaşlarımız ilə birlikdə daim inkişaf edərək, universal standartlarda səhiyyə anlayışımız və elmi töhfələrimizlə ölkədə fərq yaradan tibb mərkəzi olmağı hədəfləmişik.

















**TƏDBİRLƏRİMİZ HAQQINDA ƏTRAFLI MƏLUMAT ÜÇÜN QR KODU SKAN EDİN**

# MƏLUMAT TURLARI

Şagirdlərin və tələbələrin diqqətini sağlamlığın qorunmasına istiqamətləndirmək, onların həkimlərə qarşı qorxusunu aradan qaldırmaq və ilkin tibbi biliklər aşılamaq məqsədilə Sağlam Ailə Tibb Mərkəzində mütəmadi şəkildə məlumat turları təşkil edilir. Məktəblilər və tələbələr turlar zamanı Sağlam Ailə Tibb Mərkəzinin fəaliyyəti haqqında ətraflı şəkildə məlumatlandırıldıqdan sonra müxtəlif xidmət otaqlarında prosesləri müşahidə edərək, yaxından izləyirlər. Mütəxəssislər tərəfindən tur iştirakçılarına analiz götürülməsi, laborator nümunələrin çeşidlənməsi və digər sonrakı mərhələlər haqqında ətraflı məlumat verilir.

























MƏLUMAT TURLARI HAQQINDA ƏTRAFLI MƏLUMAT ÜÇÜN QR KODU SKAN EDİN

# LOYALLIQ KARTLARIMIZ




Tibb kartı, Sağlam Ailə Tibb Mərkəzləri şəbəkəsində qeydiyyatdan keçən pasiyentlərə məxsus "Tibbi tarixçə" kartıdır.

**ÜSTÜNLÜKLƏRİ:**

Kart sahibinə;
- ildə bir dəfə Qanın kliniki analizi və ya Spermoqramma müayinəsi hədiyyə olunur,
- doğulduğu ayda "Yaşın qədər endirim" edilir,
- illik dövriyyədən asılı olaraq, ödədiyi məbləğin 5% - 20%-i bonus kimi Tibb kartına əlavə olunur.

"Sağlam Ailə" Tibb Mərkəzlərinin hədiyyə kartları üzərində göstərilən məbləğin ödənişini təstiqləyən sənəddir.

Kart yalnız "Sağlam Ailə" Tibb Mərkəzlərində ödəniş vəsaiti gücünə malikdir.
Kartlar bir şəxsdən digərinə hədiyyə kimi verilə bilər.

Kart sahibi onun dəyəri həcmində Sağlam Ailə Tibb Mərkəzlərinin xidmətlərindən istifadə etmək hüququna malikdir.

Ailə kartı, üzərində məxsus olduğu ailənin soyadı qeyd olunaraq, ailə üzvlərininin birgə istifadə etdiyi kartdır.

Ailə üzvlərinin sahib olduğu "Tibb kart"-larından bir neçəsinin və ya hamsının bonusu cəm şəklində Ailə kartında toplana bilər.

**ÜSTÜNLÜKLƏRİ:**

İllik dövriyyədən asılı olaraq, hər bir ailə üzvünün ödədiyi məbləğin 5% - 20%-i bonus olaraq Ailə kartına əlavə olunur.

QR kodu skan edib, linkə daxil olaraq loyallıq kartlarımız, onları əldə etmək şərtləri və üstünlükləri ilə tanış ola bilərsiniz

# SOSİAL ŞƏBƏKƏLƏRDƏ

## BİZİ İZLƏYİN!

Yüksək keyfiyyətli xidmətin göstərilməsi və pasiyent məmnuniyyəti Sağlam Ailə Tibb Mərkəzinin fəaliyyətinin prioritet istiqamətlərindəndir. Pasiyent məmnuniyyəti strategiyamız dünyanın aparıcı standartlarına və əhalinin bütün təbəqələrinin tələb və ehtiyaclarının nəzərə alınması ilə yanaşı sektorun digər tələblərinə əsaslanır.

Pasiyentləri gülərüz qarşılayıb onların istəklərini tam rahat şəkildə yerinə yetirməklə yanaşı, bütün yüksək xidmət standartlarını layiqincə yerinə yetirmək bizim əsas vəzifəmizdir.

**Qeyd etmək istərdik ki, ilin 365 günü sosial şəbəkələrdəki rəsmi səhifələrimizdən onlayn rejimdə çalışan müştəri xidmətlərimiz vasitəsilə onlayn qeydiyyatdan keçə, bizə suallarınızı ünvanlaya, təklif və şikayətlərinizi bildirə bilərsiniz.**

Fikirləriniz bizim üçün dəyərlidir!

Facebook, Instagram, Youtube, Telegram, Google+, Whatsapp`da Sizinləyik!



*SOSİAL MEDİA*
***HESABLARIMIZ***

EVİNİZDƏ, OFİSİNİZDƏ,
İSTƏDİYİNİZ ÜNVANDA

# MÜAYİNƏ

**İlin 365 günü**




- **Yataq xəstəniz var?**
- **Körpə uşaqla evdən çıxa bilmirsiniz?**
- **İşlərinizin çoxluğundan sağlamlığınıza ayırmaq üçün zamanınız qalmır?**
- **Ailə üzvlərinizi müayinəyə aparmaq üçün razı salmaq mümkün deyil?**
- **Hava şəraiti müayinəyə getməyinizə imkan vermir?**

***Səbəb nə olur olsun, biz hər zaman sizinləyik. Əgər müayinə üçün mərkəzlərimizə yaxınlaşa bilmirsinizsə, ilin 365 günü Tibbi briqadamızı Sizə uyğun ünvana çağıra bilərsiniz.***

---

## Bunun üçün;

**(012) 910/ (012) 440 13 00** nömrəli Çağrı Mərkəzimizlə əlaqə saxlayaraq və ya **(055) 4000 910** nömrəli **Whatsapp** nömrəmizə yazaraq **"Evinizdə müayinə"** xidməti üçün müraciət edə bilərsiniz.

Daha sonra Sizə uyğun gün və saatda briqadamız istədiyiniz ünvana yaxınlaşacaq. Müayinə nəticələriniz hazır olan zaman isə Siz evdən çıxmadan nəticələrinizi qeyd etdiyiniz e-mail hesabı vasitəsilə əldə edəcəksiniz.